# Məhəbbət şairi Mikayıl Müşfiq – 115



*(Daycest)*

*Bakı – 2023*

*Mən gəncəm, bilirəm, istiqbalım var,*

*Hələ bədr olmamış bir hilalım var,*

*Yelkənim açılır, qara yel əsmə!*

*Mənim bu dəryada bir sandalım var.*

Tanınmış Azərbaycan şairi, tərcüməçisi və pedaqoqu olan Mikayıl Mirzə Əbdülqadir oğlu İsmayılzadə (Mikayıl Müşfiq) 1908-ci il iyun ayının 5-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Atası Mirzə Əbdülqadir İsmayılzadə dövrünün tanınmış ziyalılarından idi. O, müəllimlik fəaliyyəti ilə yanaşı, yaradıcılıqla məşğul olmuş, şeirlər yazmışdır. Uşaq ikən valideynlərini itirən Müşfiq yaxın qohumlarının himayəsində böyüyür. Olduqca ağır və keşməkeşli uşaqlıq illəri keçirən şair öz əsərlərində bunu dilə gətirmişdir. Müşfiqin böyüyüb boya-başa çatmasında, şair kimi yetişməsində nənəsi Qızqayıt xanımın böyük zəhməti olmuşdur. Nənəsinin söylədiyi nağıllar, bayatılar, atalar sözləri gələcək şairin zəngin xalq yaradıcılığı ilə tanış olmasında mühüm rol oynamışdır. İbtidai təhsilini rus-Azərbaycan məktəbində alan Müşfiq humanitar elmlərə böyük maraq göstərməklə yanaşı, rus dilini də mükəmməl öyrənmişdir. 1920–1927-ci illərdə əvvəlcə Bakı darülmüəllimində, sonra 12 nömrəli II dərəcəli məktəbdə təhsil almış, 1927–1931-ci illərdə Azərbaycan Dövlət Darülfünunun (indiki Bakı Dövlət Universiteti) dil və ədəbiyyat fakültəsini bitirərək Bakı məktəblərində müəllimlik etmişdir. Şair 1930-cu illərdə “Azərnəşr”də redaktor vəzifəsində çalışmışdır.

Müşfiq çox gənc yaşlarından yaradıcılıq aləminə gəlmişdir. O, poetik yaradıcılığa 1926-cı ildə "Gənc işçi" qəzetində çap etdirdiyi "Bu gün" şeiri ilə başlamış və sonrakı illərdə dövrü mətbuatda müntəzəm çıxış etmişdir. 1930-cu ildə şairin ilk "Küləklər" adlı şeir kitabı işıq üzü görmüşdür. Kitabda müəllifin əlli üç şeiri və iki tərcüməsi toplanmışdır. Onun bir-birinin ardınca "Günün səsləri", "Vuruşmalar", "Pambıq", "Buruqlar arasında" kitabları, daha sonra isə "Şeirlər", "Çoban", "Mənim dostum", "Səhər", "Sındırılan saz", "Azadlıq dastanı", "Buruq adamı" əsərləri nəşr edilmişdir.

Mikayıl Müşfiq Azərbaycan poeziyasının inkişafında böyük rol oynamış şairlərdən biridir. Sevgi və gözəlliyi tərifləyən bir çox şeirlərin müəllifidir. O, şeiri, sənəti çox sevir, şeirlə nəfəs alırdı. Şeir onun həyatına hakim kəsilmişdi. Sənətin bədii təsir gücünə yüksək qiymət verən Müşfiq şeirdə yüksək ideya, dolğun məzmun və sənətkarlıq görmək arzusunda idi. Dərin emosionallıq, ahəngdarlıq, yığcamlıq Mikayıl Müşfiq poeziyasının əsas bədii keyfiyyətləridir. O, lirik-epik lövhələrin, peyzajların ən mükəmməl nümunələrini yaradıb.

O, həm də qayğıkeş, mehriban və tələbkar müəllim idi. Həqiqi bir müəllim, əsl vətənpərvər olan Müşfiq öz yaradıcılığında uşaqlar üçün də yer ayıraraq, bir-birindən gözəl əsərlər yaradıb. "Şəngül, Şüngül, Məngül", "Kəndli və ilan" mənzum nağılları, "Vuruşmalar", "Qaya" poemaları, "Coğrafiya", "Məktəbli şərqisi", "Zəhra üçün" və digər şeirləri uşaqlar arasında şairə böyük məhəbbət qazandırıb.

Mikayıl Müşfiq yaradıcılığında bədii tərcümə fəaliyyəti də xüsusi yer tutub. 1930-1937-ci illərdə onun tərcümə etdiyi Aleksandr Puşkinin "Qaraçılar" (Ş.Abbasovla birgə), Taras Şevçenkonun "Kobzar" (Əhməd Cavadla birgə), Yegişe Çarensin "Şeirlər", Samuil Marşakın "Huşsuza bax, huşsuza", Mirzə Fətəli Axundovun "A.S.Puşkinin ölümünə Şərq poeması" əsərləri nəşr edilib.

M.Müşfiq həbs edilməmişdən əvvəl “Çağlayan” şeirlər toplusunu tərtib edib nəşriyyata vermişdir. Buraya şair son illərdəki şeirləri ilə birlikdə bundan əvvəl yaratmış olduğu ən yaxşı poetik əsərlərini də daxil etmişdi. “Çağlayan” bir növ onun on illik poetik fəaliyyətinin yekun kitabı olacaqdı. Lakin kitabı nəşr etdirmək şairə qismət olmur. M.Müşfiqin alovlu, sona qədər heç bir ideoloji çərçivəyə sığmayacaq ilhamı, poetik şəxsiyyəti sovet rejiminin sənət və sənətkar qarşısına qoyduğu tələblərə uyğun deyildi. Məhz bu səbəbdən də getdikcə mətbuatda Müşfiq haqqında təhqir, böhtan dolu kəskin tənqidi məqalələr görünməyə başladı. Yazıçıların növbəti plenumunda isə M.Müşfiqə əksinqilabçı damğası vuruldu. M.Müşfiqi 1937-ci il iyunun 4-də evində həbs etdilər. O, əksinqilabi milli təşkilatın üzvü, sovet hakimiyyətinə qarşı silahlı üsyana hazırlıqdan xəbərdar olmaqda ittiham edildi. 1938-ci il yanvarın 5-də SSRİ Ali Məhkəməsinin hərbi səhra kollegiyasının 20 dəqiqəlik məhkəmə iclası M.Müşfiq barəsində güllələnmə qərarı verdi və 1938-ci il yanvarın 6-da şair Nargin adasında güllələnir. Təxminən 20 il keçəndən sonra Azərbaycanın məşhur yazıçıları M.Müşfiqin işinə yenidən baxılması barədə müraciət etdilər. 1956-cı il mayın 23-də SSRİ Ali Məhkəməsinin hərbi kollegiyasının qərarına əsasən Mikayıl Əbdülqədir oğlu İsmayılzadə bəraət qazanır.

M.Müşfiq Azərbaycan xalqı üçün 30 illik ömrünə sığdırdığı əsl sənət xəzinəsini yadigar qoyub. Mikayıl Müşfiqin Azərbaycan poeziyasının nadir incilərindən sayılan "Oxu, tar, oxu tar", "Qal, sənə qurban", "Sənin gülüşlərin", "Maralım", "Ana", "Küləklər", "Yenə o bağ olaydı" və digər şeirlərinə bəstələnən mahnılar dinləyici alqışını, rəğbətini qazanan sənət əsərləridir. Mikayıl Müşfiq şəxsiyyəti milli şüur və vətənpərvərliyin timsalı, yaradıcılığı isə gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və gənclərimizdə vətənpərvərlik hisslərinin tərbiyəsində əvəzsiz xəzinədir.

Azərbaycanın xalq tərəfindən sevilən tanınmış şairi Mikayıl Müşfiqin 115 illik yubileyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası şair haqqında fondunda mövcud olan əsərlərinin, haqqında yazılan kitabların, dövrü mətbuatda keçən əsrdən günümüzə qədər haqqında çıxan məqalələrin tammətnli siyahısını, görkəmli şəxslərin şair haqqında səsləndirdikləri qiymətli fikirləri bir araya toplayıb oxuculara təqdim edir.

## Şəkillərdə










## Görkəmli şəxsiyyətlər Mikayıl Müşfiq haqqında

Mikayıl Müşfiq, Hüseyn Cavid, Əhməd Cavad və o dövrdə yaşamış başqa sənətkarlar öz əsərlərində xalqımızın milli azadlıq fikirlərini əks etdirmişlər. Onlar öz əsərləri, elmi fəaliyyətləri ilə Azərbaycan xalqının elm və mədəniyyətinin yüksəlməsinə çalışmış və beləliklə də xalqı gələcəyə, milli azadlığa, müstəqilliyə doğru aparmışlar.

***Heydər Əliyev***

Böyük şair Mikayıl Müşfiq milli folklordan və klassik ədəbi ənənələrdən layiqincə bəhrələnməklə yaratdığı dərin lirizmə malik və doğma dilin bütün gözəlliklərini özündə ehtiva edən bənzərsiz poetik nümunələrlə Azərbaycanın çoxəsrlik bədii fikir xəzinəsini daha da zənginləşdirmişdir. Forma yeniliyi, məzmun genişliyi, romantik əhval və yüksək həyat eşqi bu söz sənəti incilərinin başlıca keyfiyyətləridir. Müşfiqin adı 1930-cu illər totalitarizminin qurbanına çevrilmiş məsum insanların xatirəsinin rəmzi və nakam şair obrazı kimi xalqın yaddaşında yaşamaqdadır.

***İlham Əliyev***

Müşfiq bir od ki, axırda özü özünü yandıracaq!..

***Hüseyn Cavid***

Tematik cəhətdən çox zəngin olan Müşfiq yaradıcılığı forma etibarilə də rəngarəngdir. Onun şeirlərində hər mövzunun özünə məxsus spesifik forması var desək səhv etmərik. Çünki, müxtəlif mövzularda, lakin eyni vəzndə yazdığı şeirlər belə ritm, ahəng, sözlərin düzülüşü etibarilə bir-birindən fərqlənməkdədir. M. Müşfiq üçün standart bir vəzn və ya onun şəkilləri yoxdur.

***Cəfər Xəndan***

Gənclərimizə demək istəyirəm ki, şeiri, sənəti Müşfiq kimi sevin, şeirə, sənətə Müşfiq qayğısı bəsləyin. Müşfiq yerin alt qatlarından, qədim mədəniyyətimizdən xəbər verən qazıntıları çıxartmaq üçün külüngünü yerə böyük bir ehtiyatla vuran arxeoloqa bənzəyirdi. Keçmiş şairlərimizin yaratdığı söz incilərini, misilsiz, gözəl lirika nümunələri olan şeir və qəzəlləri, qoşma və bayatıları maraq və məhəbbətlə axtarıb tapan vicdanlı bir alim və tədqiqatçı kimi bu şairləri unutmağa qoymazdı.

***Nigar Rəfibəyli***

Sözə hakim, sözü məharətlə yerində işlətməyi bacaran, poetik düşüncələrin, böyük arzuların bədii ifadəsi üçün münasib, əlverişli formalar axtarıb tapmağa həmişə səy göstərən, zəngin, axıcı, obrazlı dilə malik şairin poeziyası Azərbaycan sovet poeziyasını zənginləşdirən poeziyadır. Mövzuca rəngarəng, məzmunca dolğun, formaca müxtəlif biçimli Müşfiq şeiri sovet şeirinin müvəffəqiyyətləri cərgəsində şərəflə dayanmışdır.

***Gülhüseyn Hüseynoğlu***

Mikayıl Müşfiq fitrətən şair yaranmışdı. O, bütün varlığı ilə ədəbiyyata, sənətə bağlı idi. Müşfiq həyatında bir gün də olsun ilhamsız yaşamırdı. Onun üçün ən böyük arzu-istək yaratmaq arzusu, yazmaq eşqi idi. Ömrünün əziz dəqiqələrində ya şeir yazar, ya da şeir oxuyardı.

***Mir Mehdi Seyidzadə***

Mikayıl Müşfiqin coşğun yaradıcılığında nə həyəcansız oxunan bir şeir, nə də hərarətsiz yazılan bir misra vardır. Sanki mübariz şairin kükrəyən şeirləri öz təlatümlü ürəyinin döyüntülərinin əks-sədasıdır. Sanki alovlu ilhamdan yoğrulmuş atəşli misraların məzmunu öz müəllifinin narahat, çılğın, döyüşkən təbiətini hər sətirdə oxuculara qabarıq şəkildə xatırladır.

***Əli Tudə***

Müşfiq böyük istedad idi. On bir ildə o, nə qədər gözəl şeir nümunələri yaratmışdır. Onda rahatlıq, həyat eşqi ilə sənət elmi ilə daima çırpınan bir ürək vardı. Hələ otuzuncu illərdə Səməd Vurğun onun istedadına yüksək qiymət vermişdi.

***Mirzə İbrahimov***

Müşfiq haqqında düşünərkən böyük sənətkarımız Nəsimini xatırlayıram. Altı əsr əvvəl Nəsiminin başına gələnlər, altı əsr sonra ayrı qiyafədə, ayrı şəkildə onun layiqli övladı, sənət və tale balası Mikayıl Müşfiqin başına gəldi.

***Cabir Novruz***

O, əsl mənasında şair idi, çox rəvan təbə malik şair. Dünyaya, insanlara, təbiətə şair gözü ilə baxırdı. Onun gördüyü bütün hadisələrə münasibəti şairanə olurdu.

***Sabit Rəhman***

Müşfiq poeziyası sovet dövrü ədəbiyyatımızın bütöv mərhələsi kimi onun dayaq sütunlarından birini təşkil edir. Bu poeziya – bəşəridir, bəşərin ətirli poeziyasıdır, insanın ucalığı, onun mənəvi paklığı barədə şair ürəyinin daimi çırpıntılarına həsr olunan poeziyadır. Minillik Azərbaycan şeirinə yeni bir ictima-siyasi havanın gəldiyini xəbər verən, onu ilhamla tərənnüm və təsdiq eləyən qüdrətli poeziyadır.

***Nəriman Həsənzadə***

Müşfiq şeiri, sənəti çox sevir, şeirlə nəfəs alırdı. Şeir onun həyatına hakim kəsilmişdi. Sənətin bədii təsir gücünə yüksək qiymət verən Müşfiq şeirdə yüksək ideya, dolğun məzmun və sənətkarlıq görmək arzusunda idi.

***Məmmədxan Soltanov***

Mikayıl Müşfiqin poeziyası incəlik, həzinlik etalonudur. Müşfiqin poeziyası XX əsrin birinci yarısındakı şeirimizin şəhdi, şirəsi, səs və söz harmoniyasıdır. Müşfiqi poeziyası sevgimizin, məhəbbətimizin bizdən əvvəl doğuluşudur. Bu poeziya bizdən əvvəl dünyaya gələn səsimizdir ki, hər birimizə doğma görünür, hər birimizin səsini, sözünü öz ahənginə kökləyə bilir.

***Firuzə Məmmədli***

## Kitabları

Ahmet, Güllü, Sara, Bebir : şiirler, manzum masallar. - İstanbul : Zengin yayıncılık, 2018. - 25 s.

Əhməd, Güllü, Sara, Bəbir : Kiçik yaşlı uşaqlar üçün şeirlər, mənzum nağıllar. - Bakı : Gənclik, 1992. - 30 s.

Əhməd, Güllü, Sara, Bəbir : şeirlər, mənzum nağıllar. Kiçik yaşlı uşaqlar. - Təkrar nəşr, 1992-cu ilin nəşri əsasında. - Bakı : Renessans-A, 2017. - 24 s.

Kəndli və ilan : mənzum nağıl. - Bakı : Gənclik, 1984. - 13 s.

Könlümü al, oxu! : şeirlər, poemalar. - Bakı : Maarif, 2002. - 96 s.

Könlümün dedikləri : şeirlər. - Bakı : Gənclik, 1988. - 56 s.

Mən şirin ləhcəli bir bülbüləm… : şeirlər, poemalar, mənzum oçerk. - Bakı : Kitab klubu, 2017. - 400 s.

Şəngül, Şüngül, Məngül : Kiçik yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün. - Bakı : CBS Polygraphic production, 2001. - 19 s.

Şəngül, Şüngül, Məngül : Məktəb yaşı çatmamış uşaqlar üçün. - Bakı : Gənclik, 1996. - 16 s.

Vuruşmalar. - Bakı : Gənclik, 1987. - 40 s.

Duyğu yarpaqları : şeirlər və poemalar. - Bakı : Azərnəşr, 1965. - 250 s.

## Əsərləri dövrü mətbuatda

İşçinin cavabı // Kommunist. – 1988. – 16 oktyabr. – S. 3.

İşidir ; Səninçün ; Kimidir // Ədəbiyyat və incəsənət. – 1968. – 8 iyun. – S. 11.

Kəndli və ilan // Şəkər villası

Səninçün ; Küsmərəm ; Qurban olduğum // Qobustan. – 2008. - № 2. – S. 7-8.

## Haqqında kitablarda

**Axundzadə D**. Müşfiqli günlərim : Xatirələr. III nəşr. - Bakı : Kitab klubu, 2019. - 152 s.

**Axundzadə D.** Müşfiqli günlərim. – Bakı: Gənclik, 2005. – 274 s.

**Nəcəfzadə A.** Müşfiqin duyğu yarpaqları : poeziya. - Bakı : Təhsil, 2009. - 128 s.

**Məmmədli F**. Allah tərəfindən sevilənlər tez ölür : Mikayıl Müşfiq haqqında // Seçilmiş əsərləri. **C.3.** - Bakı : Nurlan, 2009. - S. 527-530.

**Sadıq F**. Müşfiq şeirinin şəfəqində yol getmək olar : Mikayıl Müşfiq - 80 // Taleyin acığına. - Bakı : Çinar-Çap, 2003. - S. 245-247.

**Soltanov M**. Mikayıl Müşfiq // Şair və yazıçılarımızın həyatından maraqlı anlar. - Bakı : "AM 965" MMC, 2010. – S. 200-206.

**Xəndan C**. Mikayıl Müşfiq. - Bakı : Azərbaycan Dövlət Nəşriyyatı, 1956. - 46 s.

## Haqqında yazılan bədii əsərlər

**Alim M.** Bahar kimi: M. Müşfiqin xatirəsinə // Ədəbiyyat və incəsənət. – 1968. – 1 iyun. – S. 3.

**Azəroğlu.** Yenə o bağ olaydı // Kommunist. – 1988. – 16 oktyabr. – S. 3.

**Bayram T.** Müşfiqin məzarı : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 137-139.

**Dilbazi M.** Müşfiqi öldürdülər : şeir : ithaf // Seçilmiş əsərləri. - Bakı : Lider, 2004. - S. 115-116.

**Gülgün M.** Ölməz Müşfiq üçün // Ədəbiyyat və incəsənət. – 1989. – 9 iyun. - № 23. – S. 3.

**İsgəndərzadə M.** Səni kim unudar : Mikayıl Müşfiqə həsr olunur // Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. - Bakı : Şərq-Qərb, 2007. - C. 4. - S. 30-111.

**Qurbansoy F**. Göylərin lacivərd ətəklərində : sənədli povest-kollaj. - Bakı : Qərənfil MMC, 2008. - 240 s.

**Rza O.** Müşfiq: şeir // Ədəbiyyat qəzeti. – 2002. – 11 oktyabr.

**Rza R.** Qızıl gül olmayaydı : Mikayıl Müşfiqə həsr olunmuş poema // Seçilmiş əsərləri. 5cilddə. C. 4. - Bakı : Öndər, 2005. - S. 216-262.

**Səfərli İ**. Həsrət nəğməsi : Müşfiq üçün : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 173-174.

**Xəndan R.Z.** Mikayıl Müşfiqə : şeir // Azərbaycan cahandır. - Bakı : Mütərcim, 2009. - S. 212-213.

**Ziya H**. Bu dərdi kim unudar? // Azərbaycan gəncləri. – 1988. – 15 oktyabr. – S. 3.

## Haqqında dövrü mətbuatda

**Abbaslı T.** Çağlar Müşfiq // Mədəniyyət. – 2016. – 6 yanvar. – S. 11.

**Abbaslı T.** Əbədiyanar qalmışımız : bütün Azərbaycan könüllərinin "həri"sini almışımız, hər cür duyar-duyğuları da "Oxu, Tar" sayağı çalmışımız... // Mədəniyyət. - 2017. - 7 iyun. - № 43. - S. 13.

**Abbaslı T**. Ulu poeziyamızın əbədi gənci : düşmən qələmi ömrünü yarımçıq kəssə də, sözü bütöv, irsi əbədi Mikayıl Müşfiq // Mədəniyyət. - 2018. - 22 iyun. - № 48. - S. 12.

**Abbasov M**. Müşfiqin bir bəndini hifz eləyən xatirə ; Əziz müəllimim, həyat müəllimim // Ədəbiyyat qəzeti. – 1992. – 17 iyul. - № 29. – S. 5.

**Abdullayeva A.** M.Müşfiq və xalq əfsanələri // Ədəbiyyat qəzeti. – 1991. – 7 iyun. - № 23. – S. 5.

**Abdullayeva A**. Müşfiqi kim unudar // Pioner. – 1988. - № 11. – S. 3-5.

**Abdullayeva S**. Son mənzili ürəyimiz olan Mikayıl Müşfiq... // İki sahil. - 2018. - 30 oktyabr. - № 205. - S. 18.

**Abidov M**. Müşfiq əsərlərinin nəşri tarixindən // Mədəni maarif. – 1988. - № 3. – S. 41- 42.

**Adilov M.** Söz vurğunu // Ədəbiyyat və incəsənət. – 1968. – 1 iyun. – S. 6.

**Azəri L.** Xalqı, vətəni sevən şairlər unudulmurlar : Mikayıl Müşfiq anadan olmasının 110-cu ildönümündə yad edildi // Mədəniyyət. - 2018. - 6 iyun. - № 44. - S. 4.

**Azəri L.** Yazmaram ürəyim sizi anmasa... : Unudulmaz şair Mikayıl Müşfiqin 110 illiyi qeyd olundu // Mədəniyyət. - 2018. - 10 oktyabr. - № 73. - S. 1, 3.

**Cabiroğlu M.** Mənim bu dəryada bir sandalım var // Ədəbiyyat qəzeti. – 2008. – 26 iyun.

**Cabiroğlu M.** Müşfiq yaşayacaq // Ədəbiyyat qəzeti. – 2007. – 8 iyun. – S. 6.

**Çərkəzqızı S.** Ölüm adasında son nəfəs... : Mikayıl Müşfiqin ölümündən 85 il ötür // Yeni Azərbaycan. - 2023. - 6 yanvar. - № 243. - S. 8.

Dünən bir şairin keçdim yanından: Mikayıl Müşfiqin xatirəsi yad edilib // Mədəniyyət. – 2014. – 8 yanvar. – S. 13.

**Eyvazlı G**. Alnımda göynəyən güllə yeri : Müşfiqin ruhuna // Ədəbiyyat qəzeti. - 2018. - 27 oktyabr. - № 40. - S. 3.

**Elçin.** Mənim könlüm deyir ki... // Ədəbiyyat və incəsənət. – 1978. – 1 iyul. – S. 4.

**Əhmədalılar T.** Oxu, yar... // Mədəniyyət. – 2014. – 6 iyun. – S. 12.

**Əhmədli F.** Müşfiq ocağı // Kommunist. – 1989. – 7 may.

**Əhmədov Q**. Səni kim unudar // Azərbaycan. – 2007. – 27 dekabr.

**Ələddinqızı N**. Ürəklərdə yuva salan Mikayıl Müşfiq : Dövlət başçısının Sərəncamı ilə Mikayıl Müşfiqin 110 illiyi qeyd ediləcək // Səs. - 2018. - 22 may. - № 97. - S. 13.

**Ələkbər S.** Ah, bu uzun Sevda yolu // Qobustan. – 2008. - № 2. – S. 5-6.

**Ələkbərli N.** Bəlkə o, belə şair olmazdı // Panorama. – 1996. – 5 iyun.

**Ələsgərov S.** Nəğməkar şair // Ədəbiyyat və incəsənət. – 1978. – 1 iyul. - S. 4.

**Əlimirzəyev X.** Romantik poeziya // Ədəbiyyat və incəsənət. – 1978. – 1 iyul. – S. 4.

**Əliyev S**. Mikayıl Müşfiq // Pioner. – 1984. - № 9. – S. 20.

**Əliyeva A**. Səni kim unudar... : Mikayıl Müşfiq - 110 // Mədəniyyət. - 2018. - 25 may. - № 41. - S. 13.

**Əliyeva İ.** M.Müşfiq: seçilmiş əsərləri // Azərbaycan pioneri. – 1984. – 1 fevral.

**Əvəzoğlu İ.** Xalq sənətinə bağlılıq // Ədəbiyyat və incəsənət. – 1968. – 1 iyun. – S. 3.

**Hacı K.** Bir daha şairlər güllələnməsin : Mikayıl Müşfiqin əziz ruhuna // Ədəbiyyat qəzeti. - 2018. - 9 iyun. - № 23. - S. 5.

**Hacıyeva İ.** Rus ədəbiyyatına sevgilərlə // Ulduz. – 1988. - № 11. – S. 67-71.

**Hacıyeva N.** Mikayıl Müşfiq və rus ədəbiyyatı // Azərbaycan müəllimi. – 1982. – 2 iyul.

**Həsənov H**. Mikayıl Müşfiq : Mən gəncəm, bilirəm, istiqbalım var, Hələ bədr olmamış bir hilalım var! // Həftə içi. - 2018. - 11 noyabr. - № 254. - S. 5.

**Həsənzadə N.** Həmişə yaşıl yarpaqlar // Azərbaycan gəncləri. – 1966. – 8 iyul.

**Həsənzadə N.** Müşfiqin özüylə birgə // Ədəbiyyat və incəsənət. – 1978. – 1 iyul. – S. 5.

**Hüseynqızı S**. Ucalıq // Kommunist. – 1988. – 16 oktyabr. – S. 3.

**Hüseynli İ.** Məhəbbət şairi yad edildi // Təhsil problemləri. – 2008. – 21-30 aprel. - №23-24. – S. 13.

**Hüseynoğlu G.** Elə könül verən şair // Elm və həyat. – 1988. - № 11. – S. 14-15.

**Hüseynoğlu G.** Günəşlə yarışan nə bəxtiyardı // Ədəbiyyat qəzeti. – 2008. – 26 iyun. - № 24. – S. 1.

**Hüseynoğlu G**. İstedad həmişə yaşayır // Ədəbiyyat və incəsənət. – 1983. – 10 iyun. – S. 7.

**Hüseynoğlu G**. M. Müşfiq haqqında söz // Azərbaycan. – 1968. - № 5. – S. 142-144.

**Hüseynoğlu G**. Müşfiq ənənəsi // Ədəbiyyat qəzeti. – 1998. – 24 iyul. - № 29. – S. 1-2.

**Hüseynoğlu G.** Müşfiq ürəklərdədir // Ulduz. – 1968. - № 5. – S. 35.

**Hüseynoğlu G.** Şairin məhəbbəti // Azərbaycan. – 1994. – 20 avqust.

**Hüseynoğlu G.** Ürəklərdə yaşayan şair // Ədəbiyyat qəzeti. – 2008. – 8 avqust. - № 30. – S. 1.

**Hüseynov Ə.** Qələmim deyir ki : Mikayıl Müşfiq – 110 // Mədəniyyət. - 2018. - 25 iyul. - № 56. - S. 13.

**Hüseynzadə H.** O, şeir və sənət üçün yaranmışdı // Bakı. – 1966. – 31 yanvar.

**Xaqaniqızı D.** Oxu tar, oxu tar, səni kim unudar // Təhsil problemləri. – 2008. – 21-31 may. – S. 12.

**Xəlilzadə F.** Müşfiq yadigarı // Azərbaycan müəllimi. – 1978. – 23 iyun. – S. 4.

**Xəlilzadə F**. Müşfiqli günlərimin əbədiliyi və ya yuxalmış bir ürəklə ayrıldığım xanım // Kaspi. - 2017. - 13 sentyabr. - № 148. - S. 11.

Xəyalımız üzəydi sevda dənizlərində : Mikayıl Müşfiqin xatirəsi yad olunub // Mədəniyyət : qəzet. - 2022. - 7 yanvar. - № 1. - S. 2.

**Xəyyam.** Rübailər: Müşfiqin tərcümələri // Ədəbiyyat və incəsənət. – 1978. – 1 iyul. – S. 5.

**İbrahimoğlu R.** Müşfiqsiz 70 il // Planet. – 2008. – 06-12 may. - № 15.

**İdrisoğlu F.** Unudulmaz şairin xatirəsi anıldı // Azərbaycan müəllimi. – 2008. – 20 mart. – S. 7.

**İsmayıloğlu A.** Geri qayıdan güllələr // Ədəbiyyat qəzeti. – 2005. – 14 yanvar. – S. 6.

**İsmayıloğlu A.** Yelkənim açılır, qara yel əsmə // Ədəbiyyat qəzeti. – 2004. – 9 yanvar. – S. 6.

**Kamal R**. Matadorun və şairin ölümü : Federiko Qarsia Lorka və Mikayıl Müşfiq // Ədəbiyyat qəzeti. - 2019. - 16 noyabr. - № 39/40. - S. 25.

Kövrək yaddaş // Kommunist. – 1988. – 16 oktyabr. – S. 3.

**Qasımov İ.** Xalq yaradıcılığından bəhrələnmişdir // Azərbaycan gəncləri. – 1988. – 15 oktyabr. – S. 3.

**Quliyev B**. Həmişəyaşar şairimiz // Mədəni-maarif. – 2009. - № 3. – S. 76.

**Quliyev İ.** Müşfiq mətbuatda: (1927-dən 30-cu ilədək) // Ədəbiyyat və incəsənət. – 1990. – 20 iyul. - № 27. – S. 1.

**Quliyev R.** Təzə bir şeir // Kommunist. – 16 oktyabr. – S. 3.

**Quliyev V.** Müşfiqin Şuşalı günləri // 525-ci qəzet. – 2018. - 30 iyul. - №115. - S.16.

**Quliyeva S**. Azadlıq carçısı : Mikayıl Müşfiq - 110 // Azərbaycan : qəzet. - 2018. - 5 iyun. - № 125. - S. 7.

**Quliyeva S.** Mikayıl Müşfiqin tarixə mesajları // Ədəbiyyat qəzeti. - 2018. - 6 oktyabr. - № 37. - S. 6-7.

**Quliyeva S.** Müşfiq həqiqətləri silsiləsindən // Ədəbiyyat qəzeti. - 2019. - 21 dekabr. - № 50/51/52. - S. 26-27.

**Quliyeva S.** Müşfiq səmasında buludlar // Azərbaycan gəncləri. – 1988. – 15 oktyabr. – S. 3.

**Qurbanova N**. Müşfiq sənətinin işığı // Ədəbiyyat və incəsənət. – 1989. – 14 iyul.

**Qurbansoy F**. Müşviqin ikinci qəzəli // Ədəbiyyat qəzeti. - 2018. - 17 noyabr. - № 43. - S. 4.

**Məhərrəmova T**. Qısa ömrün əbədi sevgisi : Mikayıl Müşfiqin Azərbaycan poeziyasındakı yeri həmişə ən ucalarda olacaq // Kaspi. - 2018. - 5 iyun. - № 99. - S. 9.

**Məmmədli İ**. Ağrılı zamandan doğulan "Duyğu yarpaqları" : Mikayıl Müşfiqin eyni adlı kitabı haqqında // 525-ci qəzet. - 2019. - 18 may. - № 77. - S. 18.

**Məmmədoğlu S**. Müşfiq bulağı // Ədəbiyyat qəzeti. – 1991. – 22 fevral.

**Məmmədova M**. İsti iyunun soyuqlu - Müşfiqli günləri : Publisistik düşüncələr // Səs. – 2023. - 6 iyun. - № 98. - S. 12.

Mikayıl Müşfiq : Mətn F.D.Aşnin, B.M.Alpatov və D.M.Nasilovun birgə hazırladığı "Repressiya olunmuş türkologiya" kitabından tərcümə edilmişdir // Ədəbiyyat qəzeti. - 2018. - 9 iyun. - № 23. - S. 4-5.

Mikayıl Müşfiq adına Poeziya evinin yaradılması təklif olunub // Respublika. - 2020. - 28 yanvar. - № 17. - S. 6.

Mikayıl Müşfiqin 100 illik yubileyi qeyd olunmuşdur // Azərbaycan. – 2008. – 14 aprel. – S. 9.

Mikayıl Müşfiqin 110 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (17 may 2018-ci il) // Azərbaycan : qəzet. - 2018. - 18 may. - № 111. - S. 1.

**Mirməmməd G**. Xəyal poçtuna əmanət məktub // Panorama. – 1998. – 6 yanvar. - № 1.

**Mirməmməd G.** Müşfiqsiz illərin biri də ötdü // Panorama. – 1996. – 5 iyun. – S. 4.

**Mirzə N.** Mikayıl Müşfiqin yubileyi qeyd edildi // Azərbaycan müəllimi. – 2008. – 15 fevral.

**Mirzəbəyli İ**. Görkəmli şəxsiyyətlərimizin xatirəsi daim əziz tutulur : "Mən Müşfiqin məzarı tapılmayınca ölməyəcəyəm..." // Xalq qəzeti. - 2018. - 2 noyabr. - № 247. - S. 8.

**Muxtar R**. Mənim oyaq yuxularım : Mikayıl Müşfiq : XIII yuxu // Səs. - 2017. - 3 mart. - № 40. - S. 12.

Müşfiq qəlbinin hərarəti // Azərbaycan. – 1968. - № 4. – S. 193-195.

Müşfiq ocağında // Xalq qəzeti. – 1994. – 7 iyun.

Müşfiq ömrünün anları // Mədəniyyət. – 2009. – 4 mart. – S. 8.

**Müşfiq Ş.** Müşfiq poeziyasının notlardakı sədası // 525-ci qəzet. - 2018. - 7 aprel. - № 61. - S. 12.

Müşfiq üçün // Azərbaycan gəncləri. – 1968. – 9 may.

Müşfiq yaşayır, yaşayacaq // Bakı. – 1989. – 23 may.

Müşfiqin xatirəsi daim Azərbaycan xalqının qəlbində yaşayacaq // Ədəbiyyat qəzeti. - 2018. - 9 iyun. - № 23. - S. 4.

**Mütəllimova S**. Mikayıl Müşfiqə həsr olunmuş gecə // Mədəniyyət. – 2008. – 17 aprel.

Nə xoşdur bir hiss kimi qəlblərə girmək // Təhsil problemləri. – 2008. – 1-10 may. - № 25-26. – S. 12.

**Nəcəfxanlı Ə.** Fələkdən kam almayan talesiz şair : Mikayıl Müşfiq - 115 // Xalq qəzeti. - 2023. - 4 iyun. - № 117. - S. 11.

**Nərimanoğlu M**. Müşfiq nəğməsi – çağlayan ruhun səsi // Azərbaycan. – 2010. – 11 iyun. – S. 7.

**Nəsirli M.** Əbədi məskən // Azərbaycan gəncləri. – 1968. – 8 iyun.

**Rəfibəyli N.** Sadə və səmimi şair // Ədəbiyyat və incəsənət. – 1968. – 22 iyun. – S. 2.

**Rəhimov S.** Borandan bahara // Azərbaycan gəncləri. – 1968. – 15 iyun.

**Rəhimova G.** Yubiley sərgisi // Azərbaycan müəllimi. – 1978. – 23 iyun.

**Rəhman S.** Həyat aşiqi // Ədəbiyyat və incəsənət. – 1969. – 1 fevral. – S. 2.

**Rəmzi C.** Müşfiq haqqında xatirələrim // Kommunist. – 1988. – 19 avqust. - № 34. – S. 8.

**Rza R.** Azəri xalqının sevimli şairi // Ədəbiyyat və incəsənət. – 1969. – 25 yanvar. – S. 2.

**Rza R.** Müşfiq... Müşfiq... // Ədəbiyyat və incəsənət. – 1968. – 1 iyun. – S. 3.

**Rza R.** Unuda bilmirəm // Azərbaycan. – 1968. - № 5. – S. 3-6.

**Salmanov Ş.** Müşfiqdə lirik epos // Ədəbiyyat və incəsənət. – 1968. – 8 iyun. – S. 11-12.

**Sevinc**. İşıqlı dünyadan necə əl çəkim? // Mədəniyyət. – 2008. – 26 iyun. – S. 5.

**Seyidzadə M**. O, ilhamsız yaşamırdı // Azərbaycan. – 1968. - № 5. – S. 7-8.Şair, vətənpərvər, vətəndaş // Bakı. – 1988. – 19 oktyabr.

Şair, vətənpərvər, vətəndaş // Odlar yurdu. – 1988. - № 20. – S. 1.

Şairin xatirə günü // Ədəbiyyat qəzeti. – 1991. – 7 iyun.

Şeirimizin sübh çağı // Ədəbiyyat qəzeti. – 2008. – 14 mart. – S. 6.

**Şəmsizadə N.** Şeirimizin sübh çağı // Ədəbiyyat qəzeti. – 2008. – 26 iyun. – S. 1-2.

**Şərif H**. O illər unudulmur // Ədəbiyyat və incəsənət. – 1988. – 21 oktyabr.

**Tudə Ə.** Alovlu ilham // Azərbaycan müəllimi. – 1978. – 7 iyun. – S. 3.

**Yaqubqızı R.** Ah, bu uzun sevda yolu... // Respublika. - 2023. - 4 iyun. - № 117. - S. 10.

**Yusifli V**. Bu dünyada Müşfiq vardı // Panorama. – 1998. – 6 iyun. - № 105.

**Yusifli V**. Bu dünyada Müşfiq vardı : İyunun 4-də M. Müşfiq dünyaya gəlib // Ədəbiyyat qəzeti. - 2021. - 28 may. - № 23. - S. 5.

**Yusifoğlu R.** Ağ günlər şairi // Pioner. – 1978. - № 8. – S. 12.

**Zamanov A.** Yadımda qalanlar // Ədəbiyyat və incəsənət. – 1978. – 1 iyul. – S. 5.

**Zəka R.** Yaddaşlardan silinməyən sətirlər // Ədəbiyyat və incəsənət. – 1978. – 1 iyul. – S. 5.

**Tərtib etdi:** **Əkbərova Aysel**